# Beynəlxalq Multikulturalizm Qış məktəbinin iştirakçıları Quba və Xaçmazda



**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM), Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Slavyan Universitetinin (BSU) birgə təşkilatçılığı ilə fəaliyyətə başlayan "Multikulturalizm Azərbaycanda həyat tərzi kimi: öyrən, araşdır, paylaş-2016" adlı Beynəlxalq Multikulturalizm Qış məktəbi fevralın 11-də Qubada öz işini davam etdirdi.**

Quba Rayon İcra Hakimiyyətinin başçısı Yaşar Məmmədov Beynəlxalq Multikulturalizm Qış məktəbinin iştirakçılarını salamlayaraq onların səfərindən məmnunluğunu bildirdi. İcra Hakimiyyətinin başçısı Qubadakı multikultural durum haqqında iştirakçılara məlumat verdi: "Quba rayonunda 149 kənd (onlardan yeddisi qəsəbədir) və bir şəhər yerləşir. Əhalisi 160 min nəfərdən artıqdır. Bağçılıq və turizmin inkişaf etdiyi Quba alması və xalçaları ilə məşhurdur. Quba çoxmillətli rayondur, burada 20-dən artıq azsaylı xalq yaşayır. Onların 79%-ni azərbaycanlılar, 9 %-ni tatlar, 6 %-ni ləzgilər, 1.8%-ni yəhudilər,1.4%-ni türklər, 1.4%-ni xınalıqlılar və 1.2 %-ni digər xalqların nümayəndələri təşkil edir. Uzun əsrlərdir biz bu millətlərlə yanaşı, mehriban yaşayırıq. Qubadakı Qırmızı Qəsəbədə çayın bir sahilində sinaqoqlar, o biri sahilində məscidlər fəaliyyət göstərir. Bu fakt Azərbaycanda multikulturalizm və tolerantlıq ənənələrinin mövcudluğunun sübutudur".

Soyqırımı Memorial Kompleksinin ziyarətindən sonra iştirakçılar qubalı gənclərlə birgə Azərbaycandakı Dağ Yəhudiləri İcmasının sədri Milix Yevdayevin müşayiəti ilə Qubadakı Qırmızı Qəsəbədə oldular, sinaqoqlara baş çəkdilər. Quba Rayon İcra Hakimiyyəti başçısının Qırmızı Qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Pisax İsakov qonaqları salamlayaraq yəhudilərin adıçəkilən qəsəbədə, eləcə də Azərbaycanda məskunlaşması tarixindən, ölkəmizdəki normal multikultural əhvaldan və tolerantlıq ənənələrindən söz açdı.

Sonra Qış məktəbinin iştirakçıları ilə Qırmızı Qəsəbənin yerli gəncləri birgə çay süfrəsi arxasında səmimi söhbət apardılar. Quba Rayon Gənclər Şurasının üzvlərinin tələbələrlə maraqlı mövzularda diskussiyaları baş tutdu. Gənclər Şurasının sədri Ramin Xudayev tələbələrlə əlaqələrin daha da intensiv və davamlı olması üçün təkliflərlə çıxış etdi.

Həmin gün Xaçmaz rayonuna səfər edən gənclər rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış oldular.



Litva Edukologiya Universitetinin professoru Vidas Kavalyiauskas və Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi, professor Etibar Nəcəfovun moderatorluğu ilə "Dünya təcrübəsində multikulturalizm modelləri" mövzusunda "dəyirmi masa" təşkil olundu. "Dəyirmi masa"da dünyanın müxtəlif multikulturalizm modelləri müzakirə edildi, multikulturalizmin Azərbaycan modelinin mahiyyətindən ətraflı söhbət açıldı. Professor Etibar Nəcəfov Azərbaycan multikulturalizminin spesifik xüsusiyyətləri barəsində iştirakçılara məlumat verərək bildirdi ki, ölkə əhalisinin böyük əksəriyyətinin müsəlman olmasına baxmayaraq Konstitusiya qarşısında bütün dinlər bərabərdir: " Azərbaycan multikulturalizmini fərqləndirən xüsusiyyətlərdən biri də bu ali dəyərin xalqımızın həyat tərzi olması ilə yanaşı, dövlət siyasətində prioritet istiqamətlərdən biri olmasıdır. Azərbaycan ərazisində müxtəlif dinlərə aid abidələr inşa, təmir və restavrasiya etdirilir".

Tədris gününün sonunda Qış məktəbinin müdavimləri Xaçmaz Olimpiya İdman Kompleksində yerli gənclərin iştirakı ilə futbol, voleybol, üzgüçülük, şahmat, bilyard yarışları keçirdilər.

**Taleh Turqut,**
***"İki sahil"***